

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 120 (23.762)

*6 iyul 2021-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasının çağırılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyası 2021-ci il iyul ayının 8-də saat 11$^{00}$-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilsin:

1. 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2020-ci il dövlət büdcəsinin icrasının təsdiq edilməsi

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 iyul 2021-ci il*

## Tərəqqi və inkişaf yolu ilə irəliləyən




***Bu gün ölkəmizin, xalqımızın qazandığı bütün nailiyyətlər öz xeyirxah əməlləri, şəxsi nüfuzu ilə dahiliyin fövqündə özünə əbədi yer qazanmış fenomenal şəxsiyyət Heydər Əliyev siyasi xəttinin təntənəsidir. Cəmiyyətimizin inkişafı ulu öndərin ölməz və uzun illərə hesablanmış ideyalarına söykənir, hər bir azərbaycanlı bu ideyaları öz həyatında görür, Azərbaycan Heydər Əliyev yolu ilə daim uğurlar qazanaraq böyük zirvələri fəth edir. Bütün bunlar isə, təbii ki, 1969-cu ilin 14 iyulundan başlanan əbədi yoldur. Xalqımız bütün varlığı ilə inanır ki, ölkəmizdə həyata keçirilən siyasi xətt – Heydər Əliyev yolu Azərbaycanı bundan da böyük zəfərlərə qovuşduracaqdır. İndi ölkəmiz dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında bu yolla inamla irəliləyir, regionda və beynəlxalq aləmdə böyük iqtisadi və siyasi uğurlara imza atır. Bu qələbələr bizi zirvələrdən-zirvələrə ucaltmaqda və Azərbaycan cəmiyyətinin firavanlığını yüksək səviyyədə təmin etməkdədir. Fəxrlə qeyd etdiyimiz firavanlıqda isə Naxçıvanın xüsusi payı vardır. Blokada şəraitində olsa da, Naxçıvan yaşayır, sürətlə inkişaf edir. Muxtar respublikanın hər bir şəhəri, qəsəbəsi, kəndi yenidən qurulur, böyük və hərtərəfli tərəqqi işığında nura boyanır.***

Zəngin dövlətçilik və beş min ildən artıq şəhərsalma tarixi, qüdrətli sivilizasiya yollarının sahibi olan ulu Naxçıvan bu gün əsl inkişaf və tərəqqi meydanının canlı nümunəsidir. Blokada şəraitində yaşamasına baxmayaraq, belə bütöv, kompleks inkişafa nail olmaq, aydan-aya, ildən-ilə inkişaf tempini daha da yüksəltmək haqlı olaraq hər birimizdə qürur hissi doğurur. Bu, insanın öz doğma Vətəni qarşısında həqiqi övladlıq borcunu şərəflə yerinə yetirməsi, ümummilli liderimiz Heydər Əliyevin Vətənə hüdudsuz sevgi və sədaqətinin ifadəsi, onun müdrik, uzaqgörən siyasətinin layiqincə davam etdirilməsinə bağlıdır.

Görkəmli dövlət xadimi Heydər Əliyev əsl vətəndaş olmaq üçün ləyaqət göstərməyi, xalq, Vətən naminə çalışmağı, Vətən sevgisini, doğma torpağa, doğma yurda bağlılığı əməli işlə nümayiş etdirməyi tövsiyə edirdi: ***"Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır".*** Bu mənada, tarixboyu başı çox bəlalar çəksə də, dəfələrlə yüksəliş dövrləri yaşamış, zəngin mədəni irs yaratmış qədim Naxçıvan bugünkü intibahı ilə, sanki çəkdiyi müsibətlərin əvəzini çıxır, ulu köklər üstündə qol-qanad açıb daha xoş sabahlara doğru sürətlə addımlayır. Yeni tarixin yeni Naxçıvanının bu günü dostlarımızı sevindirir, düşmənlərə isə gözdağı verir.

Bu gün Naxçıvan Muxtar Respublikasının bütün sahələr üzrə əsl nümunə gücünə malik olması ulu öndər Heydər Əliyev ideyalarına sədaqətin bariz nümunəsidir. Tikinti-quruculuq xəritəsi günü-gündən genişlənən qədim diyarda hər il qədim və müasir memarlıq məktəbinin elementlərini özündə yaşadan yüzlərlə yeni inzibati binalar, sosial obyektlər, xidmət sahələri tikilərək istifadəyə verilir. Ən ucqar dağ kəndindən tutmuş paytaxt Naxçıvana qədər bütün yaşayış məntəqələrində yaradılan abadlıq, ilk növbədə, əhalinin rahatlığına xidmət edir. Muxtar respublikanın bütün yaşayış məntəqələrində, xüsusilə ən ucqar dağ kəndlərində müasir infrastruktur yaradılması insan amilinə ən böyük qayğının ifadəsidir. Bu da evində fasiləsiz mavi yanacaq şölələnən, işığı daim yanan, ən müasir informasiya texnologiyalarından istifadə edən, rahat yoldan və səhiyyə xidmətindən yararlanan, uşağı müasir məktəbdə təhsil alan hər bir sakini doğma yurd-yuvasına daha sıx tellərlə bağlayıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Mən istəyirəm ki, gənclərimiz vətənpərvər, peşəkar, bilikli, savadlı olsunlar, Vətən sevgisi ilə böyüsünlər".*** Vətən sevgisinin əsası isə məktəbdə qoyulur. Bu səbəbdən də muxtar respublikada məktəb işi həyata keçirilən təhsil islahatlarının əsasını təşkil edir. ***"Təhsilə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir"***, – deyən Ali Məclis Sədrinin rəhbərliyi ilə muxtar respublikada 200-dən artıq məktəb binası tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Muxtar respublikamızın ali təhsil müəssisələri dünyanın qabaqcıl ali təhsil müəssisələri səviyyəsində güclü infrastruktura malikdir. Çalışdığım Naxçıvan Müəllimlər İnstitutunun yeni tədris korpusunda fəaliyyətini davam etdirməsi diyarımızda yüksəkixtisaslı pedaqoji kadrların hazırlanmasına öz töhfəsini verməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə bu təhsil ocağının müstəqil ali məktəbə çevrilməsi, elmi-pedaqoji kadr potensialının zənginləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, beynəlxalq əlaqələrinin yaradılması, respublika səviyyəli qabaqcıl ali təhsil müəssisəsi kimi tanıdılması istiqamətində xeyli iş görülüb. Ölkə başçısının iştirakı ilə istifadəyə verilmiş ali təhsil ocağının altımərtəbəli binasında yaradılan şərait professor-müəllim heyətinin məsuliyyətini daha da artırıb, bizə əlavə stimul verib. Bu da ixtisaslı kadr hazırlığında başlıca amillərdən biridir.

Muxtar respublikada gənclər siyasəti sahəsində həyata keçirilən tədbirlər yalnız müasir təhsil infrastrukturunun yaradılması ilə məhdudlaşmır. Son illər gənclərin hərtərəfli inkişafının təmin olunması üçün güclü sosial-iqtisadi, təşkilati təminatların yaradılması, idman və gənclər siyasətinin yeni mərhələyə yüksəldilməsi, istedadlı gənclərin üzə çıxarılması, dövlət idarəçiliyində və digər sahələrdə onların irəli çəkilməsi ictimai həyatın bütün sahələrində fəallığa səbəb olub. Fiziki inkişaf və asudə vaxtın səmərəli təşkili sağlam həyat tərzi olmaqla yanaşı, həm də gənclərin mənən formalaşması, zərərli vərdişlərdən uzaqlaşdırılması deməkdir. Bu gün gənc nəslin idmana cəlbi, idmanın kütləviliyinin təmin olunması sahəsində kompleks işlər görülür, beynəlxalq idman yarışları keçirilir, Naxçıvanın adı dünya çempionatlarında, beynəlxalq arenalarda səslənir, yeni idmançılar nəsli yetişir.

Sevindirici haldır ki, muxtar respublikamızda milli dəyərlərimizə, adət-ənənələrimizə yüksək sahiblik hissi vardır. Yüzillərboyu formalaşmış mənəvi irsimiz qorunur, öyrənilir, gənc nəsil milli dəyərlərə sədaqət ruhunda böyüdülür və tərbiyə olunur. Muxtar respublikada qazanılan əsas nailiyyətlərdən biri də Naxçıvan tarixinin ətraflı tədqiq olunması, milli-mənəvi dəyərlərimizin zənginləşdirilərək qorunub yaşadılmasıdır. Diyarımızın qədim tarixinin elmi şəkildə öyrənilməsi, bu məqsədlə beynəlxalq simpozium və konfransların keçirilməsi, dünyanın diqqətinin Naxçıvana yönəldilməsi ciddi elmi nəticələrin qazanılmasına səbəb olmuş, Naxçıvan tarixi ilə bağlı yüzlərlə elmi əsərlər yazılmış, Naxçıvanşünaslıq elmi istiqamət kimi tədqiqat mövzusuna çevrilmişdir. Bu gün hər bir naxçıvanlının ümumi fikri belədir ki, biz Vətən sevgisi üzərində ucaldılan, arzuları çin olduğu, inkişaf və tərəqqinin davamlı xarakter daşıdığı, təhlükəsizliyin tam təmin edildiyi, ləyaqətli, vətənpərvər gəncliyin yetişdirildiyi, iradənin bütün çətinliklərə qalib gəldiyi bir diyarda yaşayırıq. Bu gün muxtar respublikamızın hər bir sakinində inkişafımızın gələcək perspektivləri ilə bağlı aydın təsəvvür vardır: Biz bundan sonra da inkişaf yolu ilə gedəcək, böyük uğurlara imza atacağıq.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".*** Bu gün Naxçıvan Muxtar Respublikası xalqımızın ümummilli lideri Heydər Əliyevin arzularının reallaşdığı möhtəşəm məkandır. Ulu öndərin göstərdiyi yolla qətiyyətlə irəliləyən, onun istəklərini, arzularını, gələcək haqda planlarını addım-addım yerinə yetirən Naxçıvanda əldə olunan bütün nailiyyətlər Vətənə və xalqa xidmət nümunəsidir. Naxçıvanda görülən işlər ölkə Prezidenti tərəfindən də hər zaman yüksək qiymətləndirilir. Cari il may ayının 10-da Azərbaycan Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri zamanı da muxtar respublika əhalisi ölkə rəhbərinin bu qədim diyara nə qədər önəm verdiyinin bir daha şahidi oldu. Dövlət başçısı tərəfindən səsləndirilən fikirlər hər bir Naxçıvan sakini tərəfindən minnətdarlıqla qarşılandı: ***"Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır".***

Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın xoş sabaha olan inamını qat-qat artırıb. Bu gün Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Ulu öndər Heydər Əliyevin ölməz ideyalarını həyatda real təcəssüm etdirən müstəqil Azərbaycan Respublikası ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə işıqlı gələcəyə doğru inamla addımlayır. 44 günlük Vətən müharibəsində işğalçı düşmən üzərində qazanılan tarixi Qələbə bütün dünyaya milli həmrəyliyimizi nümayiş etdirdi. Belə böyük Qələbənin qazanılmasında vətənpərvərliyi həyat amalına çevirən naxçıvanlıların da böyük qəhrəmanlıqlar göstərməsini ölkə Prezidenti də öz çıxışlarında, müsahibələrində dəfələrlə bəyan edib.

*Bu gün hərtərəfli inkişaf etdirilmiş, əsaslı şəkildə yenidən qurulmuş, düşmən qarşısında alınmaz qalaya çevrilmiş müasir Naxçıvan tarixinin yeni inkişaf mərhələsini yaşayır. Təbii ki, yaxın keçmişə qayıdıb son illərə nəzər saldıqda hansı çətinliklərdən, hansı mürəkkəb dövrdən bu xoş günlərə gəlib çıxdığımıza ekskurs edərkən hər birimiz bu uğurlarla qürur duymağa mənəvi haqqımız olduğunu görürük. Çünki Naxçıvan artıq ümummilli liderimiz Heydər Əliyevin vaxtilə görmək istədiyi müasir və daim inkişaf edən Naxçıvandır!*


**Qızıltac ŞAHBAZOVA**
***Naxçıvan Müəllimlər İnstitutunun dosenti,***
***Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***



# Muxtar respublika iqtisadiyyatının güzgüsü – *Naxçıvan Biznes Mərkəzi*

***Haqqında söhbət açacağımız məkan muzey kimi fəaliyyət göstərməsə də, 2017-ci ildən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamının icrası ilə bağlı ziyarət olunan obyektlər siyahısına daxil edilən Naxçıvan Biznes Mərkəzidir. Mərkəzin həmin siyahıya salınması heç də təsadüfi deyil. Çünki Naxçıvan Biznes Mərkəzini ziyarət etməklə yerli istehsal məhsullarımız, istehsalçı şirkətlər, iri holdinqlər, ailə təsərrüfatları, bir sözlə, muxtar respublika iqtisadiyyatı haqqında ətraflı məlumat əldə etmək olar. Bu "muzeyin" eksponatları isə yerli istehsal məhsullarıdır desək, yanılmarıq.***

2013-cü ildən istifadəyə verilən Naxçıvan Biznes Mərkəzinin əsas iş istiqamətləri biznesin inkişafı məqsədilə sahibkarların maarifləndirilməsi, onlar arasında işgüzar əlaqələrin gücləndirilməsi, beynəlxalq və yerli əhəmiyyətli tədbirlərin, o cümlədən konfransların, forum və seminarların keçirilməsi, yerli istehsal məhsullarının, əl işlərinin sərgi və satışının təşkilindən ibarətdir. Ümumi sahəsi 2000 kvadratmetr olan mərkəzdə müasir avadanlıqlarla təchiz edilmiş 100 nəfərlik iclas və 200 nəfərlik konfrans zalları, tədbir iştirakçıları üçün 2 dildə sinxron tərcümə dəstinin mövcudluğu burada beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsinə geniş imkanlar yaradır. Sərgi ilə tanışlıq məqsədilə gələn ziyarətçilərə ixtisaslı kadrlar tərəfindən xidmət göstərilir.





Mərkəzin sərgi salonunda muxtar respublika iqtisadiyyatının dinamik inkişafını göstərən əsas sosial-iqtisadi göstəricilərinin və son illər ərzində istifadəyə verilmiş mühüm infrastruktur obyektləri haqqında məlumatların əks olunduğu tablolar, eləcə də muxtar respublikada fəaliyyət göstərən 78 emal və xidmət müəssisəsi tərəfindən istehsal olunan məhsulların nümayişi həyata keçirilir. Həmçinin mərkəzdə sərgilənən Bəhruz Kəngərli məktəbinin davamçıları olan muxtar respublika rəssamlarının rəsm əsərləri və yerli sənətkarların dekorativ-tətbiqi sənət, dulusçuluq, ağac üzərində oyma işləri ziyarətçilərin zövqünü oxşayır. Qeyd edək ki, mərkəzdə ağac üzərində oyma sənəti, rəssamlıq üzrə sənətkarların fərdi sərgiləri də təşkil olunur.

Naxçıvan Biznes Mərkəzinin sərgi salonunda Naxçıvanın yerli məhsulları olan kiçik plastik kapsul hissələrdən dam örtüyünə, tikinti materiallarından mebel məmulatlarına, mineral sulardan ərzaq məhsullarına, Naxçıvan duzundan konservləşdirilmiş meyvə-tərəvəz məhsullarına, xüsusi geyim formalarından kimyəvi məhsullara qədər 166 adda, 1293 çeşiddə məhsul sərgilənir. Muxtar respublikamızda özəl sektorun aparıcı təmsilçiləri olan "Nəqşicahan Holdinq Şirkətlər Qrupu", "Gəmiqaya Holdinq", "Cahan Holdinq", "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti, "Zümrüd" Kiçik Müəssisəsi, "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə yanaşı, çox sayda orta və kiçik biznes qurumlarının məhsulları sərgi salonunun guşələrində öz yerini tutub. Burada muxtar respublikanın aqrar sektorunda özünəməxsus fəaliyyəti ilə seçilən ailə təsərrüfatlarına geniş bir guşənin ayrılmasını muxtar respublika rəhbərinin ailə təsərrüfatlarına göstərdiyi qayğının nəticəsi olaraq həyata keçirilən tədbirlərin bir hissəsi kimi, xüsusilə qeyd etmək lazımdır. Belə ki, ailə təsərrüfatları tərəfindən istehsal olunan məhsulların tanıdılması, nümayişi və ixracının stimullaşdırılması nöqteyi-nəzərindən bu guşə müstəsna əhəmiyyətə malikdir. Qeyd edək ki, ailə təsərrüfatlarının resurslarına qənaət, onları ucuz və keyfiyyətli taralarla təmin etmək məqsədilə mərkəzin Naxçıvan şəhərində taraların satışı mağazası da fəaliyyət göstərir.

Mərkəzdə sərgilənən istehsal sahələri xəritəsindən aydın görmək olar ki, muxtar respublikamızda müxtəlif sənaye sahələri, o cümlədən maşınqayırma, kimya, tikinti, energetika, mədənçıxarma, metallurgiya, yüngül, mebel, yeyinti, emal sənayeləri və kənd təsərrüfatı təyinatlı 1051 müəssisə təkcə Naxçıvan şəhərini deyil, muxtar respublikamızın bütün bölgələrini əhatə edir.

Naxçıvan Biznes Mərkəzində bir çox mötəbər tədbirlər keçirilib. Bunlardan Naxçıvan şəhərində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Biznes-Forumu və Türkdilli Dövlətlərin Biznes Şurasının 3-cü toplantısı, Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramının Azərbaycandakı nümayəndəliklərinin nümayəndə heyətlərinin Naxçıvan Muxtar Respublikasına səfərləri çərçivəsində Azərbaycan Mikromaliyyə Assosiasiyasının icra etdiyi "Qadınların Dayanıqlı İnkişafı üçün Səlahiyyətləndirilməsi" layihəsinin açılış konfransı, Azərbaycanda akkreditə olunmuş Avropa İttifaqı ölkələrinin diplomatik missiyalarının rəhbərləri və nümayəndələrinin Naxçıvanda keçirilən "Avropa günləri" çərçivəsində yerli iş adamları ilə görüşünü göstərə bilərik.

Hər il ənənəvi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin naxçıvanlı sahibkarlarla görüşünün məhz Naxçıvan Biznes Mərkəzində keçirilməsi buranın əhəmiyyətini bir daha vurğulayır.

Muxtar respublikada sahibkarlığın genişləndirilməsi məqsədilə hüquqi və maarifləndirici istiqamətdə mərkəzdə mütəxəssislər tərəfindən sahibkarların müraciətləri əsasında müxtəlif xidmətlər göstərilir. Sahibkarlıq subyektləri üçün kiçikhəcmli kənd təsərrüfatı, orta və irihəcmli sənaye sahələrini əhatə edən biznes-planların, biznes layihələrin işlənilməsi belə xidmətlərdəndir.

Mərkəzin sərgi salonu ilə yanaşı, bu gün muxtar respublikada istehsal olunan məhsulların, eləcə də el sənətkarlarının hazırladıqları əl işləri və sənət əsərlərinin daha geniş məkanda təbliğ edilməsi və onların satışının təşkili məqsədilə Naxçıvan şəhərinin Heydər Əliyev prospektində yerləşən əl işlərinin satışı mağazasının, Saat Meydanında yerləşən hədiyyəlik – "Naxçıvan məhsulları" satış mağazasının, Əshabi-kəhf ziyarətgahında və Duzdağ Fizioterapiya Mərkəzindəki satış məntəqələrinin fəaliyyəti Naxçıvanımızın tanıdılmasında əvəzsiz rola malikdir. Bunlarla yanaşı, hər bir mağazanın sosial şəbəkələrdə daim yenilənən hesabları onların fəaliyyətinin genişlənməsinə və yerli məhsullara marağın artmasına səbəb olur.

Naxçıvan Muxtar Respublikasında qədim el sənətimiz olan xalçaçılıq ənənələrinin və milli ornamentlərin qorunub saxlanması, xalq çeşnilərinin bərpası məqsədilə həyata keçirilən kompleks tədbirlər sırasında "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində yaradılan Xalq Yaradıcılığı Emalatxanasının xalçaçılıq bölməsinin fəaliyyəti mühüm əhəmiyyətə malikdir. Eyni zamanda muxtar respublikanın digər rayonlarında da xalçaçılıq sənətinin yaşadılması diqqətdə saxlanılır. Belə ki, mərkəz tərəfindən Cəlilkənd buzxanasında xalçaçılıq sahəsinin yaradılması həmin bölgədə xalçaçılığın inkişafına, gənc nəsillər arasında təbliğinə öz töhfəsini verir. Həmçinin bədii tikiş üslublarının gənc nəsillərə ötürülməsi, xalçaçılıqda kadr hazırlığının təşkili məqsədilə mütəmadi olaraq Naxçıvan Biznes Mərkəzi tərəfindən kurslar keçirilir.

Xalq Yaradıcılığı Emalatxanasında xalçaçılıq sahəsi ilə yanaşı, ağac üzərində oyma, dekorativ-tətbiqi sənət sahələri də fəaliyyət göstərir. Emalatxanada əllə toxunan Naxçıvan xalçalarının, əl işləri və sənət əsərlərinin sərgi və satışı da elə Naxçıvan Biznes Mərkəzi tərəfindən təmin edilir.

***Bir sözlə, bu gün Naxçıvan Muxtar Respublikasında həyata keçirilən irimiqyaslı layihələrlə, onun zəhmətkeş insanlarının istehsal etdiyi məhsullarla, yaratdığı əl işləri və sənət əsərləri ilə tanış olmaq istəyənlər yolunu mütləq Naxçıvan Biznes Mərkəzindən salmalıdır.***

**Mehparə MƏMMƏDOVA**
*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin*
*Elmi-Tədqiqat Tədris Mərkəzinin elmi işçisi*

*Ailə təsərrüfatlarımız*

# Bağlar diyarının sarı donlu gözəli...



Yaşı yüzilliklərin bağrını dələn çinarları, nostalji duyğuların cövlan etdiyi, qədim, maraqlı, klassik quruluşlu məhəllələri ilə seyrinə dalanları sehrinə salan, barlı-bəhərli bağları ilə şöhrət tapan, adı dilləri, bərəkəti elləri bəzəyən Ordubadda hansı evin qonağı olsan, bir-birindən ləziz təamlarla zəngin süfrə açılar qarşında. Qonaqpərvərliyin simvolu sayılan o süfrəyə nələr düzülər, nələr. Saymaqla bitməyən təbii məhsullar, yağ, pendir, bal, mürəbbə, paxlava, şorqoğal, şəkərbura, ballı qayğanaq və bir də ordubadlıların olmazsa olmazlardan hesab etdiyi, brend adını qazanan limon. Hələ rayon mərkəzində qocaman çinarların kölgəsində qurulan çay məkanından yolunu salsan, lap əntiqə olar. Bu zaman əlavə təmtərağa lüzum da qalmayacaq, bölgənin büllur kimi saf havasında elə armudu stəkanda çay, qənd, bir də təbii, dillər əzbəri Ordubad limonu kifayətdir ki, bu çay süfrəsi ətrafında vaxtın mənalı, söhbətin şirin, xoş əhvali-ruhiyyədə keçsin...

Dünyanın müxtəlif ölkələrində becərilən sortlardan kəmiyyət və keyfiyyət göstəricilərinə görə daha üstün olan Ordubad limonunun sorağıyla yaxın günlərdə üz tuturuq bu bölgəmizə. Rayon mərkəzində Cabbarovlar ailəsinə məxsus limon təsərrüfatı sahəsinə baş çəkir, xüsusi dad-tamı olan bu şəfalı meyvənin yetişdirilmə üsulları haqqında, necə deyərlər, işi biləndən məlumat öyrənməyə çalışırıq. Ailənin başçısı, yaşı 75-i adlamış Zöhrab kişi 50 ildir ki, doğulub boya-başa çatdığı torpağın yetirib-bitirdiyi bu məhsulu becərməklə dədə-babadan miras qalan qədim təsərrüfatçılıq işini uğurla davam etdirir. Günün əksəriyyətini həyətində xüsusi zövqlə saldığı limon bağına qulluq edərək fidanların bağrına sığal çəkməklə keçirən zəhmət adamı deyir ki, hər kim özünə uzun, sağlam ömür arzulayırsa fiziki işlə yanaşı, təbiətin bütün naznemətlərini, xüsusilə də bal və limonu süfrəsindən əskik etməməlidir. VIII əsrdən başlayaraq ölkəmizin müxtəlif bölgələrində bu məhsul yetişdirilsə də, nəfis görünüşü, bihuşedici ətri, lətafətli tamı ilə fərqlənən Ordubad limonu hər zaman adla deyilib, burada bitən yerli sortun tayı-bərabəri olmayıb və bu gün də əvəzolunmazdır. Rayonumuzun bəzi təsərrüfatlarında Lənkəran, özbək sortları yetişdirilsə də, onların heç biri yerli məhsula məxsus ətrin, dad-tamın yerini vermir. Əsas səbəb torpağımızın faydalı elementlərlə zənginliyi, suyun və havanın saflığıdır, bunun üçün də əgər Ordubad limonunu da aparıb başqa yerdə yetişdirmək fikrin olsa, arzuladığın məhsulu almayacaqsan. Yerli məhsulun üstün cəhətləri çoxdur. Digər sortların qabığı qalın, acı olduğu halda, Ordubad limonunun üz örtüyü nazik və dadlıdır. Xanımlarımız ondan ləziz mürəbbə də hazırlayır. Hələ qədimdən gözəl bir simvol kimi evlərimizi, həyət-bacamızı bəzəyən xoşətirli limon ağacından qız köçürən zaman cehizə də əlavə olunar, başqa eldə yaşayan qohum-əqrəbaya, dosttanışa qiymətli hədiyyə kimi pay da tutular.

Limonun artırılma üsullarından danışan təsərrüfatçı bildirir ki, bu bitkinin dənəsini və çubuqlarını kəsib torpağa basdırmaqla da çoxaltmaq mümkündür. Lakin bizim elin insanları, əsasən, qabığının müəyyən hissəsini qoparıb dibçəyə salmaqla yetişdirirlər. Gözəl nəticə əldə etmək üçün isə müntəzəm olaraq qulluq göstərilməlidir. Limon susevər olsa da, necə deyərlər, hər şeyi qədərində etsən, yaxşıdır. Belə ki, isti havalarda az miqdarda hər gün sulaya bilərsən. Qış aylarında isə torpaq nəmini itirdikcə, təxminən, 15-20 gündən bir su verilməsi məsləhətdir. Limonların yarpaq tökməsi ən çox rast gəlinən problemlərdəndir ki, bunun başlıca səbəblərindən biri torpağın gərəyindən artıq suvarılmasıdır. Digər vacib amil isə ev şəraitində dibçəkdə yetişdirilən limonun havalandırılmasına diqqət yetirməkdir. Bu yazda dibçəyə qoyulan limon qabığı gələn yazadək kök atır və ili tamam olduqda çıxarıb daha böyük qaba yerləşdirilməlidir. Elə ki, böyüdü, qol-budaq atdı, ağac formasına düşdü, torpağa salınır və həftədə bir-iki dəfə suvarmaqla, zərərvericilərə qarşı aqrotexniki qulluq göstərməklə növbəti illərdə yaxşı məhsul əldə etmək mümkündür. Ordubad brendinin alıcısı da başının üstündədir, şəxsən mənim bağımda yetişən məhsulları elə qapıdaca gəlib alırlar, bazara çıxarmağa ehtiyac qalmır.

Limonun faydaları barədə də söhbət açan Zöhrab kişi deyir ki, vətəni qədim Hindistan olan limonun müsbət keyfiyyətləri haqqında tarixi mənbələrdən, dədə-babadan kifayət qədər maraqlı faktlar öyrənmişəm. Limonu sağlamlığın qorunmasında güclü bir vasitə sayan əfsanəvi hind yoqlarının fikrincə, hər adam özünü gündə bir limon yeməyə və şirəsini içməyə öyrətməlidir. XVIII əsrdə ingilis donanmasında uzun səfər zamanı matroslara gündə 30 qram limon şirəsi qəbul etmək məcburi sayılırdı ki, bu da onları sinqa xəstəliyindən qoruyurdu. Keçən əsrdə limonu taun xəstəliyindən qoruyan və ilan zəhəri əleyhinə vasitə hesab edirdilər. Qafqazda belə bir qədim əfsanə var ki, hökmdarın sevimlisi ağılsız hərəkət edərək qəzəbə düçar olur və həbsxanaya düşür. Ona həbsxanada yemək seçməyi təklif edirlər. Məhbus limon seçir və bu hamının təəccübünə səbəb olur. O deyir ki, limonun ətri ruh yüksəkliyi yaradır, qabığı və toxumları ürəyə faydalıdır, ləti qidadır, şirəsi isə susuzluğu yatırır. Təbabətdə geniş istifadə olunan limonun qabıq və yarpaqlarında efir yağları mövcuddur, təzə sıxılmış şirəsi isə C vitamini ilə zəngindir. Bu şəfalı bitkinin tərkibində R vitamini də vardır ki, insan orqanizmində onun qıtlığı qanaxmalara, ayaq ağrılarına, dərialtı qansızmalara, ümumi zəifliyə gətirib çıxara bilər. Bu vitamindən damar şişməsində və tropik yaralarına qarşı dərman kimi istifadə edilir, limonlu çayın çox içilməsinin də böyük müalicəvi əhəmiyyəti vardır. Limon həm də antibakterial təsirə malik olduğu üçün immunitetin möhkəmləndirilməsində, xüsusilə də dövrün bəlası sayılan yoluxucu xəstəliklərdən müdafiə olunmaqda, eləcə də angina və avitaminoz xəstəliklərinə qarşı effektli vasitədir.

Ömrünü ümumi evimiz sayılan təbiətin mühafizəsi, təbii sərvətlərin qorunub yaşadılması kimi ümumbəşəri missiyaya həsr edən görkəmli alim, akademik Həsən Əliyev deyirdi: "Təbiətin bizə bəxş etdiyi ən qiymətli sərvət torpaqdır. Torpaq bizim "çörək ağacımız" olmaqla yanaşı, həm də yaşayışımızın ibtidaisini təşkil edir. Məhz buna görə də torpaq bizim üçün əzizdir, doğma və müqəddəsdir, torpaq Vətən deməkdir". Bərəkətli yurd yerinin yetirib-bitirdiyi naz-nemətin, yaradılan əlverişli şəraitin qədir-qiymətini bilən zəhmətkeş ordubadlılar da görkəmli akademikin ideyalarını əldə rəhbər tutaraq əsrdən-əsrə, nəsildən-nəslə ötürülən limonyetişdirmə ənənəsini davam etdirməklə həm diyarın şan-şöhrətini qoruyub saxlayır, həm də "çörək ağacı"ndan halal çörəklərini qazanırlar. Elə yazımızın qəhrəmanı Zöhrab Cabbarov kimi...

**Nail ƏSGƏROV**

# İnsan amili dövlət siyasətinin prioritetinə çevriləndə

***Muxtar respublikada müasir tibb ocaqlarının tikilib istifadəyə verilməsi, insanların sağlamlıqlarının qorunması, əhalinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi daim diqqət mərkəzində saxlanılır. İnsan amilinin dövlət siyasətinin əsas prioritetinə çevrildiyi muxtar respublikamızda bu məramə xidmət edən humanist addımlara tez-tez rast gəlirik. Qəzet səhifələrində və ya televiziya efirlərində naxçıvanlı həkimlər tərəfindən rayonlarda humanitar tibbi aksiyaların keçirildiyinə dair xəbərlərlə tez-tez tanış oluruq. Yüksəkixtisaslı həkim briqadalarının yurdumuzun hər bir kəndinə, şəhərinə gedərək humanitar tibbi aksiyalar keçirməsi də artıq ənənə halını alıb.***



Belə tədbirlərin davamı olaraq iyulun 2-də Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin bir qrup həkimindən ibarət briqada sərhəd bölgəmiz olan Sədərək rayonunda ödənişsiz həkim qəbulları həyata keçirib. Həkimlər onlara müraciət edən xəstələri müayinə edib, alınan nəticələrə uyğun lazımi tövsiyələr veriblər.

***Sədərək Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Kəmalə İbrahimova fikirlərini belə bildirir:***

– Aparılan islahatlar, həyata keçirilən genişmiqyaslı layihələr belə deməyə əsas verir ki, muxtar respublikamızda tibbi xidmətin səviyyəsi yeni, daha mükəmməl mərhələyə qədəm qoyub. Diyarımızda həkimlər tərəfindən keçirilən humanitar tibbi aksiyalar da görülən bu işlərin tərkib hissəsidir. Bu zaman həm də həkimlər arasında təcrübə mübadiləsi imkanı yaranır. Onu da deyim ki, xəstəliklərin müayinə və müalicəsində daim yeni metodların öyrənilməsi və tətbiq edilməsi hər bir tibb işçisinin gündəlik fəaliyyətinin tərkib hissəsi hesab olunur. Bu baxımdan da belə tədbirlərin keçirilməsi çox əhəmiyyətlidir. Yaradılan bu unikal şəraitə görə kollektivimiz adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığımı bildirirəm.

***Diaqnostika Müalicə Mərkəzinin baş həkimi Nihad Seyidov:***

– Biz həkimlərin ən ümdə borcu insanlara tibbi xidmət göstərmək, onların sağlamlığının keşiyində dayanmaqdır. Bu işdə dövlətimizə arxalanırıq. Çünki sosial siyasətin tərkib hissəsi olan səhiyyə sahəsində aparılan islahatlar, qoyulan investisiyalar bir məqsədə xidmət edir: insanlar sağlam olsunlar, onlara ən yüksək səviyyəli tibbi xidmət göstərə bilək. Tibbi müayinələr zamanı həkimlər tərəfindən profilaktik baxış keçirilir, sağlamlığa dair məlumatlar və xəstəliklərə səbəb olan risk faktorları ilə bağlı tövsiyələr verilir. Xəstəlik aşkar olunduğu halda pasiyentlər yerində, zərurət yarandığı halda isə bölgələrdə fəaliyyət göstərən ixtisaslaşdırılmış tibb müəssisələrində əlavə müayinə və müalicəyə cəlb olunurlar. Baxmayaraq ki, yurdumuz 30 ildən artıqdır, blokadada yaşayır, muxtar respublika rəhbərinin sosial siyasətinin əsas prioriteti olan səhiyyə sistemində qarşıya qoyulan bütün vəzifələr uğurla yerinə yetirilir.

Aksiyanın iştirakçısı ***ümumi cərrah, tibb elmləri doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi İsa Abdullayev*** bu cür humanitar aksiyalarda iştirak etməyin ona mənəvi rahatlıq gətirdiyini deyir: – Səhiyyə sistemində son illər uğurlu islahatlar aparılıb, tibb müəssisələrinin maddi-texniki bazası və kadr potensialı gücləndirilib, bütövlükdə, səhiyyə sahəsində böyük nailiyyətlər əldə edilib. Dövlət başçısının sosialyönümlü siyasətinin nəticəsi olaraq Azərbaycanda çoxsaylı səhiyyə müəssisələrinin tikintisi, əsaslı təmiri və müasir avadanlıqlarla təchiz edilməsi uğurla həyata keçirilir. Tələbəlik illəri və yeni həkim işlədiyi vaxtlar sovetlər dönəminə təsadüf edən səhiyyənin dünənini görən İsa həkim onu, xüsusilə qeyd edir ki, həmin vaxtlarda belə yüksək şəraitə malik səhiyyə ocaqlarından söhbət gedə bilməzdi. Bu gün səhiyyə ocaqlarımıza girəndə insan qürurlanır, bilirsən ki, burada yaradılan şərait xəstələrə düzgün diaqnoz qoymağa kömək edəcək. İnsanların sağlamlığının qayğısına qalmaq, onların narahatçılığını xoşbəxtliyə çevirməyə and içən həkimlər üçün bundan böyük sevinc ola bilməz.

***Həkim-terapevt Aygül Məmmədova:***

– Sədərəkdə belə bir xeyirxah işdə iştirak etdiyim üçün çox qürurluyam. Qətiyyən yorğunluq hiss etmədim. Xəstəxanadakı müasir şərait, xəstə müayinəsi zamanı dəqiq diaqnoz qoymamız üçün lazımi tibbi prosedurların düzgün yerinə yetirilərək bizə təqdim edilməsi işimizi yaxşı qurmağımıza imkan verdi. Doğma diyarımızın hansı kəndi, hansı şəhərində olduğumuzun fərqi yoxdur, harada oluruqsa olaq, insanların sağlamlıqlarının qayğısına qalmaq, onların nigaran baxışlarını sevinclə əvəz etmək böyük xoşbəxtlikdir.

Müayinə üçün müraciət edənlər göstərilən bu diqqət və qayğıya görə



əməyi keçən hər kəsə minnətdarlıqlarını bildirirlər.

***61 yaşlı sakin Sara xanım:***

– Belə aksiyaların təşkili, muxtar respublikada icbari tibbi sığortanın tətbiqinə başlanılması biz sakinlərin sağlamlığına göstərilən ən böyük qayğıdır. Növbəti aksiyada müayinələr nəticəsində müraciət edənlərin sağlamlıqları ilə bağlı problemlərin aşkara çıxarılmasının, müalicələrinin təşkil edilməsinin şahidi oldum. Naxçıvan şəhərindən gələn həkimlərdən Nail Mehbalıyevin, Elvin Əsədovun qəbulunda oldum, müayinədən keçdim. Əvvəllər xarici ölkələrdə şəfa axtarırdıq, indi isə sağlamlığımızı öz həkimlərimizə əminliklə etibar edirik. Nəticə isə göz qabağındadır: Profilaktika, müayinə, diaqnoz və müalicənin düzgün təşkili, peşəkar və yerli tibbi kadrların işə əsl vətəndaş həssaslığı ilə yanaşması başlıca amillərdəndir. Allah dövlətimizin bayrağını həmişə uca eləsin.

***67 yaşlı Elman Musayev də bu gün buraya üz tutanlardandır:***

– Son illərdə muxtar respublikada istifadəyə verilən sağlamlıq ocaqları, onların təcrübəli kadrlarla, ən müasir texnologiyalarla təmin edilməsi dövlətimizin insan amilinə diqqət və qayğısından xəbər verir. Dünyanın inkişaf etmiş ölkələrinin xəstəxanalarında tətbiq edilən texnologiyalara indi muxtar respublikamızın hər bir səhiyyə müəssisəsində rast gəlmək olur. Blokadanın ilk illərindəki çətinliklərin canlı şahidi kimi bu gözəl ənənəni yaradan və yaşadan böyük ürəkli insanlara minnətdarlığımı bildirirəm. Həkimlərdən Mətanət Səfərovanın, İntiqam Fətullayevin qəbulunda oldum.

Qeyd edək ki, bu aksiyada endokrinoloq, invaziv kardioloq, ürəkdamar cərrahı, ümumi cərrah, həkim-terapevt, nevrocərrah, dermatovenerooq, travmatoloq-ortoped, oftalmoloq, otorinolorinqoloq ixtisaslı həkimlər, EKQ üzrə tibb bacısı iştirak ediblər. Ümumilikdə, 187 sakin aksiya çərçivəsində müxtəlif müayinələrdən keçib.

**Ramiyyə ƏKBƏROVA**

# Buraxılış mərasimi keçirilib



***Naxçıvan Qarnizonu Qoşunlarında Vətən müharibəsinin iştirakçısı olmuş bir qrup hərbi qulluqçunun da cəlb edildiyi ehtiyat zabit hazırlığı kursunu başa vuran məzunlara ilkin zabit rütbələri təqdim edilib. Kursları uğurla bitirənlərin xidmət yerlərinə yola salınmaları münasibətilə buraxılış mərasimi keçirilib.***

Mərasimdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər məzunlara təbriklərini çatdıraraq bildiriblər ki, məşğələlərdə kursantlar müxtəlif növ atıcı və iriçaplı silahlardan praktik atışları, bütün növ zirehli tank texnikalarından sürücülük və atış çalışmalarını yerinə yetirib, Vətən müharibəsində qazanılan təcrübə uğurla mənimsənilib.

Naxçıvan Qarnizonunun rəisi, general-polkovnik Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıran general-leytenant Fazil Ağalarov bildirib ki, bir neçə gün əvvəl Naxçıvan Qarnizonu Qoşunları və Türkiyə Silahlı Qüvvələrinin idarəetmə orqanları ilə keçirilən birgə taktiki-xüsusi təlimində "BAYRAQDAR-TB2" silahlı pilotsuz uçuş aparatının uğurla tətbiq edilməsi, Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələri üçün yeni yaşayış və xidmət kompleksinin, yeni xidməti avtomobillərin istifadəyə verilməsi ordu quruculuğu istiqamətində görülən işlərin məntiqi davamıdır. Vurğulanıb ki, muxtar respublikamızda peşəkar hərbçi kadrların hazırlanması daim diqqət mərkəzində saxlanılır və bu məqsədlə müxtəlif hərbi ixtisaslar üzrə hazırlıq kursları təşkil olunur. Bundan əvvəl olduğu kimi, budəfəki ehtiyat zabit hazırlığı kursunu bitirən məzunlardan bir qrupu ümumtəhsil məktəblərində Gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edəcək.

Çıxışların ardından məzunlara rütbə, sertifikat və hədiyyələr təqdim edilib.

Kurs birincisi xatirə lövhəsinə buraxılış emblemini vurub və məzunların yeni vəzifələrə təyin olunmaları ilə bağlı əmrlər mərasim iştirakçılarına çatdırılıb.

Əmrlər oxunduqdan sonra məzunların tribuna önündən təntənəli keçidi olub.

Sonda xatirə şəkli çəkdirilib.

**Nəriman NƏCƏFOV**

# Tələbələrə sertifikat təqdim edilib

Naxçıvan Dövlət Universitetində tədrisi ingilis dilində olan İqtisadiyyat ixtisası üçün təşkil edilən 12 həftəlik təlim uğurla yekunlaşıb. Amerikalı professorların da qatıldığı onlayn tədbirdə çıxış edən universitetin rektoru Elbrus İsayev müəllim və tələbələrin gələcək karyeraları üçün mühüm əhəmiyyət daşıyan təlimlərin keçirilməsinə görə amerikalı mütəxəssislərə minnətdarlıq edib, universitet adından hər bir təlimçiyə sertifikat təqdim olunub.



Təlimdə iştirak edən müəllim və tələbələr qazandıqları uğurlara görə amerikalı təlimçilərə minnətdarlıqlarını ifadə ediblər. Onların hər birinə amerikalı mütəxəssislərin imzaladıqları sertifikat verilib.

Görüşdə gələcək əməkdaşlıq məsələləri müzakirə edilib, birgə təlimlərin əhəmiyyəti önə çəkilib.

Qeyd edək ki, tədrisi ingilis dilində olan İqtisadiyyat ixtisası tələbələrinin və bu ixtisasda dərs deyəcək müəllimlərin təcrübi peşə bacarıqlarının formalaşdırılması və inkişafı üçün ABŞ-ın Şimali İllinoys Universitetinin professorları tərəfindən onlayn təlimlərə 2020-2021-ci tədris ilinin əvvəlindən başlanılıb. Naxçıvan Dövlət Universiteti ilə ABŞ universitetləri arasında keçirilən bu təlimlər həmin ixtisasda dərs deyəcək müəllimlərin hazırlıq səviyyəsinin daha da artırılması istiqamətində mühüm əhəmiyyətə malik olub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Təlimlərə start verilib

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sisteminə daxil olan gömrük orqanlarının əməkdaşları üçün "Fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən yüklərin müayinəsi və sərnişin keçid zallarında işin təşkili" mövzusunda təlimlərə start verilib.

Muxtar respublika gömrük sistemində xidmətin keyfiyyətinin artırılması məqsədilə ardıcıl olaraq həyata keçirilən təkmilləşmə və ixtisaslaşma proqramı çərçivəsində təşkil olunan təlimlərə Sədərək, Culfa, Şahtaxtı və Hava limanı gömrük postlarında xidmət edən əməkdaşlar cəlb edilib.

Birinci mərhələdə 10 əməkdaşın iştirak etdiyi üçgünlük təlimdə stasionar və portativ metal detektorlardan istifadə qaydaları, vətəndaşlarla rəftar, onların müayinə olunması, müşahidə üsulları və şəxsi yoxlama, HI-Scan rentgen qurğusunun istismarı qaydaları, HI-Scan rentgen qurğusunun istismarı zamanı təsvirlərin analizi qaydaları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 305 nömrəli Qərarından irəli gələn məsələlər, sadələşmiş bəyannamələrin gömrük rəsmiləşdirilməsi, malların info-köşklərdə bəyan olunması, fiziki şəxslərdən saxlanılmış malların VAİS proqram təminatında müvəqqəti saxlanc anbarına götürülməsi, minik nəqliyyat vasitələrinin VAİS proqram təminatında qeydiyyatı, rentgen qurğusu operatorlarının diqqətinin artırılmasına dair üsullar, əşyalarda gizli saxlanc yerləri barədə məlumat, təcrübədə aşkarlanmış faktlar üzrə təsvirlərin analizi qaydası, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən gömrük sərhədindən keçirilməsi qadağan olunan və mülki dövriyyəsi məhdudlaşdırılan mallar, narkotik vasitələr və psixotrop maddələr barədə dərslər və praktik məşğələlər keçirilib.

Təlimin proqramına uyğun olaraq stasionar və portativ metal detektorlardan istifadə, o cümlədən HI-Scan rentgen qurğusunun istismarı zamanı təsvirlərin analizi üzrə qiymətləndirmələr aparılıb. Təlim iştirakçıları 25 müxtəlif çantada gizlədilmiş silah və partlayıcıları, 18 müxtəlif çantada isə narkotikləri müəyyən etmək üzrə imtahanlara cəlb olunublar. Rentgen təsvirlərinin analizinin qiymətləndirilməsi "Sinfox" proqram təminatı vasitəsilə aparılıb. Ümumi imtahan nəticələrinə əsasən "70-85 faiz" intervalı "Məqbul", "85-100 faiz" intervalı "Yüksək" dəyərləndirilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

# Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş konsert

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında keçirilən konsert proqramında şair Xanəli Kərimli çıxış edərək Aşıq Ələsgərin həyat və yaradıcılığından söhbət açıb. O, qeyd edib ki, 2021-ci ildə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, qüdrətli söz ustadı Aşıq Ələsgərin anadan olmasının 200 illiyi tamam olur. Aşıq Ələsgər zəngin yaradıcılığı ilə Azərbaycan aşıq ədəbiyyatının barlı-bəhərli əbədiyyət ağacıdır. Zaman-zaman nəsillər bu ağacı ziyarət edəcək, Aşıq Ələsgərin söz dünyasından nübar sözlər, misralar, fikirlər dərəcək, Ələsgər möcüzəsi yenə də bitib-tükənməyəcək. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan aşıq ədəbiyyatında Aşıq Ələsgər möcüzəsi ilə sazın, sözün yeni ömrü başladı. "Haqq aşığı" ifadəsi Dədə Ələsgərin simasında yenidən dirilib gerçəkləşdi. 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində anadan olan Ələsgəri atası Alməmməd kişi böyük külfətini dolandıra bilmədiyindən 14 yaşında Kərbəlayı Qurban adlı bir varlıya nökər verir. Ələsgər 4 il Kərbəlayı Qurbanın həyətində nökərçilik edir. Ələsgər Kərbəlayı Qurbanın qızı Səhnəbanuya aşiq olsa da, bu sevda baş tutmur. İllər keçir, Ələsgər nakam məhəbbətin ağrı-acısını yaşayır, uzun illər ilk məhəbbətini unuda bilmir, çətinliklərdən, sınaqlardan keçə-keçə sazla-sözün qovuşduğu dəryaya can atır. Dövrünün qüdrətli sənətkarı Aşıq Alı onun gələcək taleyini büsbütün dəyişir. Fitri istedadı, kəskin hafizəsi, şəxsiyyəti, nəcibliyi ilə hər kəsdən



seçilən Ələsgər beş il Aşıq Alıya şəyirdlik edir, saz dünyasının sirlərinə bələd olur, sirlər qapısını açıb, ustadlıq mərtəbəsinə yetişir.

Konsert Naxçıvan Aşıqlar Birliyinin üzvü Aşıq Aydın Cəfərovun, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Əli İsmayılovun, Gülizar Əhmədlinin, Naxçıvan Aşıqlar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Tural Bağırovun, Pünhanə Hüseynovanın, Zeynəb Hüseynovanın, Naxçıvan sazçalanlar qrupunun maraqlı ifaları ilə davam edib.

**Telli MƏMMƏDOVA**

## Dövlət qulluqçuları Ağbulaq İstirahət Mərkəzində oldular



Muxtar respublika kəndlərinin füsunkar təbiət mənzərələri həyata keçirilən quruculuq tədbirləri ilə vəhdət təşkil edir. İndi hansı səmtə üz tutsan, kənd yaşayış məntəqələrində, ancaq rahat yollarla, müasir memarlıq üslubunda ucaldılan binalarla və şübhəsiz, gözəl təbiət mənzərələri ilə qarşılaşacaqsan. Bu da turizmin inkişafında başlıca amillər sırasındadır. Şahbuz rayonunun ucqar dağ kəndi olan Ağbulaq da geniş turizm potensialına malik olan yaşayış məntəqələrindən biridir. Kəndin təmiz havası, saf suyu, ekoloji təmiz məhsulları və əlverişli iqlim şəraiti burada turizmin inkişafı üçün böyük imkanlar açmışdır. Ağbulaq İstirahət Mərkəzi malik olduğu zəruri infrastruktura görə ilin hər fəslində burada asudə vaxt keçirmək istəyənlər üçün belə, şərait vəd edir. Mərkəz kənd turizminin tətbiq olunduğu ilk məkan kimi diqqəti çəkir. Həmin mərkəzin yerləşdiyi bu kənd gözəl mənzərəsi, flora və faunasının zənginliyi ilə seçilir.

Qeyd etdiyimiz kimi, mərkəz son illərdə qədim diyarımıza gələn qonaqların, tələbə və məktəblilərin ən çox üz tutduqları ünvanlardan birinə çevrilib. Hər il burada gənclərin "Yay məktəbi" təşkil olunur, onlar arasında müxtəlif intellektual və idman yarışları keçirilir. Həftənin şənbə, bazar günləri isə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət qulluqçularının Ağbulaq İstirahət Mərkəzinə yollanması artıq ənənə halını alıb. Qeyd edək ki, bundan əvvəl – iyunun 5-6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, 12-13 iyun tarixlərdə Naxçıvan Muxtar Respublikası Səhiyyə və Vergilər nazirliklərinin kollektivləri, 19-20 iyunda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın), Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşları, 26-27 iyun tarixlərdə isə Naxçıvan Muxtar Respublikası Qarnizonunun kollektivi mərkəzdə olublar. İyulun 3-4-də isə Naxçıvan Muxtar Respublikası Maliyyə, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin əməkdaşları həftəsonu istirahətlərini burada keçiriblər. İstirahət müddətində dövlət qulluqçuları mərkəzlə yaxından tanış olub, onlar üçün yaradılan bütün şəraitdən istifadə ediblər. Rahat və geniş istirahət mərkəzində müxtəlif stolüstü və əyləncəli oyunlarda iştirak edib, film izləyiblər. Qonaqlara milli mətbəximizin zəngin və ləziz təamları təqdim olunub. Mərkəzdə istirahət edənlərlə görüşüb onların təəssüratlarını öyrəndik.



İlk həmsöhbətimiz Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının əməkdaşı Qəzənfər Abdullayev dedi ki, dövlətimizin qayğısı nəticəsində Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə hər il mütəmadi olaraq dövlət qulluqçularının istirahəti Ağbulaq İstirahət Mərkəzində təmin edilir. Ağbulaq kimi havası təmiz, gözəl, sərin bir məkana gəlmələri onların vaxtlarının xoş və mənalı keçməsinə səbəb olur. Bu da muxtar respublikamızda dövlət qulluqçularına göstərilən diqqət və qayğının bariz nümunəsidir. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Əmrulla Quliyev dağların qoynunda yerləşən Ağbulaq İstirahət Mərkəzinin muxtar respublikada kənd turizminin ən gözəl ünvanı olduğunu qeyd etdi. Bildirdi ki, burada bizim yaxşı vaxt keçirməyimizə, istirahətimizə xüsusi diqqət yetirilir. Məhz bu diqqət üçün mərkəzin kollektivinə minnətdarlığımı bildirirəm. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin əməkdaşı Atatürk Qulusoy qeyd etdi ki, ilk dəfədir, bu mərkəzə gəlir. Buranın təmiz havası, istirahət üçün yaradılmış hərtərəfli şərait asudə vaxtımızı zövqlə keçirməyə səbəb oldu. İki günün necə başa çatdığını hiss etmədim. Belə şəraitə görə nazirliyin əməkdaşları adından minnətdarlığımı bildirirəm.

Qeyd edək ki, ötən şənbə və bazar günləri mərkəzdə, ümumilikdə, 60-dan çox dövlət qulluqçusu istirahət edib.

**Aytac CƏFƏRLİ**

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin iyun ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1092785 | 125017 | 125031 | 100,0 |
| 2. | Şərur rayonu | 769524 | 81817 | 81825 | 100,0 |
| 3. | Babək rayonu | 961373 | 102636 | 102643 | 100,0 |
| 4. | Ordubad rayonu | 490182 | 52414 | 52417 | 100,0 |
| 5. | Kəngərli rayonu | 335403 | 36288 | 36290 | 100,0 |
| 6. | Culfa rayonu | 408218 | 44164 | 44165 | 100,0 |
| 7. | Şahbuz rayonu | 317107 | 34671 | 34671 | 100,0 |
| 8. | Sədərək rayonu | 139420 | 14486 | 14486 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 11989819 | 1860612 | 1843186 | 99,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **16503831** | **2352105** | **2334714** | **99,3** |

## 2021-ci ilin iyul ayı ərzində Məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının qrafiki

| № | Məşğulluq mərkəzləri | Yarmarkanın keçiriləcəyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1. | Kəngərli rayonu | Kəngərli Rayon Mədəniyyət Şöbəsinin binası | 12.07.2021 | $10^{00}$ |
| 2. | Sədərək rayonu | Sədərək Rayon Mədəniyyət Şöbəsinin binası | 13.07.2021 | $10^{00}$ |
| 3. | Şərur rayonu | Şərur Rayon Olimpiya İdman Kompleksinin inzibati binası | 14.07.2021 | $10^{00}$ |
| 4. | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 15.07.2021 | $10^{00}$ |
| 5. | Ordubad rayonu | Ordubad Rayon Mədəniyyət Şöbəsinin binası | 16.07.2021 | $10^{00}$ |
| 6. | Naxçıvan şəhəri | Naxçıvan Regional Peşə Tədris Mərkəzi | 22.07.2021 | $10^{00}$ |
| 7. | Şahbuz rayonu | Şahbuz Şəhər "Araz" kinoteatrının binası | 23.07.2021 | $10^{00}$ |
| 8. | Babək rayonu | Babək Rayon Mədəniyyət Şöbəsinin binası | 26.07.2021 | $10^{00}$ |

## Naxçıvan Muxtar Respublikası üzrə 5 iyul 2021-ci il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/s | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 985 | 853 | 2448 | 28,7 |
| 2. | Şərur rayonu | 3866 | 2705 | 10464 | 38,7 |
| 3. | Babək rayonu | 10823 | 7295 | 23094 | 31,7 |
| 4. | Ordubad rayonu | 1597 | 1597 | 4556 | 28,5 |
| 5. | Culfa rayonu | 5638 | 4855 | 12692 | 26,1 |
| 6. | Kəngərli rayonu | 5998 | 4818 | 14448 | 30,0 |
| 7. | Şahbuz rayonu | 1531 | - | - | - |
| 8. | Sədərək rayonu | 2283 | 2283 | 8407 | 36,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **32721** | **24406** | **76109** | **31,2** |

## Naxçıvan Dövlət Universiteti

***əlavə (təkrar) ali təhsilin qaydalarına uyğun olaraq 2021-2022-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə əlavə (təkrar) ali təhsil almaq üçün qiyabi şöbəyə tələbə qəbulu elan edir***

| | İxtisasın şifri | İxtisasın adı | Təhsil müəssisəsinin təklif etdiyi yerlər | | |
|---|---|---|---|---|---|
| | | | Cəmi | Əyani | Qiyabi |
| 1. | 050201 | Beynəlxalq münasibətlər | 15 | | 15 |
| 2. | 050206 | Hüquqşünaslıq | 65 | | 65 |
| 3. | 050211 | Psixologiya | 10 | | 10 |
| 4. | 050214 | Tarix | 10 | | 10 |
| 5. | 050215 | Tərcümə (İngilis-Azərbaycan dilləri) | 15 | | 15 |
| 6. | 050405 | İqtisadiyyat | 25 | | 25 |
| 7. | 050409 | Mühasibat | 20 | | 20 |
| 8. | 050503 | Coğrafiya | 10 | | 10 |
| 9. | 050511 | Riyaziyyat | 10 | | 10 |
| 10 | 050616 | İnformasiya texnologiyaları | 10 | | 10 |
| 11. | 050620 | Kompüter mühəndisliyi | 10 | | 10 |
| **Cəmi:** | | | **200** | | **200** |

Əlavə (təkrar) ali tahsil almaq istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *rektorun adına ərizə;*
- *ali təhsil haqqında sənədin (diplomun və qiymət kitabçasından çıxarışın (diploma əlavə) notariusda təsdiq olunmuş surətləri;*
- *3x4 sm ölçüdə 6 ədəd fotoşəkil;*
- *sağlamlıq haqqında arayış;*
- *əmək kitabçasından çıxarış;*
- *şəxsiyyət vəsiqəsi və diplom şəxsən təqdim olunur.*

Xarici ali təhsil müəssisələrinin məzunları aldıqları ixtisasların Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyi barədə Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadənamə təqdim etməlidirlər.

Sənədlər 2021-ci il iyul aynın 6-dan avqust ayının 6-dək hər gün (istirahət günlərindən başqa) saat $10^{00}$-dan $16^{00}$-dək Naxçıvan Dövlət Universitetində qəbul edilir (Əsas bina 1-ci mərtəbə, Sənəd qəbulu komissiyası).

Əlavə (təkrar) ali təhsil almaq üçün universitetə sənəd vermiş şəxslərlə müəyyən edilmiş qaydada müsahibə aparılır. Müsahibədən uğurla keçənlər müqavilə yolu ilə müvafiq əlavə (təkrar) ali təhsil ixtisası üzrə tələbələr sırasına qəbul edilirlər. Təhsil haqqı müqavilə əsasında müvafiq ixtisaslar üzrə uyğun qaydada ödənilir.

***Ünvan: Naxçıvan şəhəri Universitet şəhərciyi, əsas bina Telefon: 036-544-08-61 (Daxili 1156)***

## Bələdçilərlə keçirilən təlim başa çatıb



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Turizm Departamentinin birgə təşkilatçılığı ilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində keçirilən "Naxçıvan Muxtar Respublikasında mövcud olan turizm marşrutları üzrə bələdçilərin texniki-peşə biliklərinin təkmilləşdirilməsi" təlimi başa çatıb. Təlim Azərbaycan Turizm Bürosunun Sənaye Assosiasiyaları üzrə meneceri, Ümumdünya Turizm Bələdçiləri Assosiasiyaları Federasiyasının (WFTGA) beynəlxalq təlimçisi Səkinə Əsgərova tərəfindən aparılıb. Tədris müddətində müdavimlərə turizm marşrutları üzrə bölgələrin coğrafiyası, tarixi, iqtisadiyyatı, incəsənət və əsas mədəniyyət mərkəzləri, muzeyləri, maddi və mədəni tarixi-memarlıq abidələri, eyni zamanda bölgə əhalisinin etnoqrafik xüsusiyyətləri haqqında ətraflı məlumat verilib. Təlim iştirakçılarına bu sahədə fəaliyyət göstərən şəxslərin xarici dil biliklərinə, yüksək ünsiyyət qurma, səlis, işgüzar və mədəniyyətlərarası danışıq bacarığına, ölkənin coğrafiyası, tarixi və mədəniyyəti barədə ətraflı biliklərə, dünyagörüşünə malik olmasının əsasları və şərtləri izah edilib. Dörd gün davam edən təlimdə iştirakçılara "Kursun məqsədi və obyektləri", "Turizm bələdçisinin rolu", "Müxtəlif növ turlarda bələdçilik fəaliyyəti", "Bələdçi mətninin strukturu", "Səs, sözlərdən istifadə, sualların idarə edilməsi", "Turizm məhsulu və turizm marşrutunun inkişaf etdirilməsi", "Gəzinti və avtobus turunda beynəlxalq standartlar" mövzularında seminarlar tədris olunub, Naxçıvan Muxtar Respublikası üzrə tematik, muzey, gəzinti və avtobus turları üzrə praktik məşğələlər təşkil edilib. Qeyd edək ki, sonda təlimi uğurla başa vuran iştirakçılara şəhadətnamə və dinləyici sertifikatları təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonu, Kosacan kəndində yaşamış Əliyeva Firuzə Qənbər qızının adına verilmiş JN-1[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 533